**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akademik Z.M.BÜNYADOV adına ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ÜMİT YUSUF OĞLU PEKTAŞ**

# XX ƏSRİN ƏVVƏLLƏRİ TÜRKİYƏ VƏ AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATINDAKI BƏDİİ NÜMUNƏLƏRİN İDEYA-MÖVZU RƏNGARƏNGLİYİ (“COCUQ DÜNYASI” (1913-1918) VƏ “MƏKTƏB” (1911-1920) JURNALLARI ƏSASINDA)

**5717.01 – Türk xalqları ədəbiyyatı**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil Nazirliyi Qafqaz Universitetinin "Türk dili və ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Nizami Tağı oglu Məmmədov**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Elman Hilal oğlu Quliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Əsgər Adil oğlu Rəsulov**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat:** AMEA M.Fuzuli adına Əlyazmalar İnstitutu "Türkdilli əlyazmaların tədqiqi" şöbəsi.

**Müdafiə** "_30____" __11__________ 2016-cı il saat ___ -da Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD 01.151 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti 115,VII mərtəbə, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

**Avtoreferat** "_____" "____________" 2016-cı iltarixində göndərilmişdir.

FD 01.151. Dissertasiya Şurasının
elmi katibi,filologiya üzrə fəlsəfə
doktoru: **Zenfira Ədhəm qızı Şıxəlibəyli**

# TƏDQİQAT İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XIX əsrin sonu XX əsrin əvvəllərində türk və Azərbaycan ədəbiyyatı özünəməxsus yüksək inkişaf mərhələsinə çatmışdır. Məlum olduğu kimi Türkiyə və Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin formalaşmasında uşaq ədəbiyyatının mühüm xidməti vardır. Elə buna görə də bu ədəbiyyatın uşaqların təlim-tərbiyəsində, təhsilində, milli və beynəlmiləl dəyərlərə yiyələnməsində rolu əvəzsizdir. Bu mənada uşaq ədəbiyyatında da istər forma, istərsə də məzmun baxımından qiymətli nümunələr qələmə alınmışdır. Bu ədəbi nümunələrdə XX əsrin əvvəllərinin ictimai-siyasi, mədəni-ədəbi mənzərəsi öz əksini tapmışdır.

XIX əsrdən XX əsrin ortalarına qədər formalaşan, getdikcə yüksək bədii-estetik dəyər qazanan türk və Azərbaycan uşaq ədəbiyyatı böyük inkişaf yolu keçmişdir. Hər iki ölkənin uşaq ədəbiyyatının inkişafında maarifləndirmə məsələsi əsas yer tutmuşdur. O dövrün şair və yazıçıları Avropada ortaya çıxan yeni təhsil anlayışlarının təsirilə maariflənməyə xüsusi fikir verir və uşaqların intellektual səviyyəsinin inkişafına xidmət edən əsərlər yazırdılar. Bu məqsədə xidmət edən şair və yazıçılar öz əsərlərini kitab halına gətirmədən əvvəl onları, əsasən, uşaq jurnal və qəzetlərində nəşr etdirirdilər. Uşaqları cəmiyyətin və millətin gələcəyi olaraq görən dövrün qabaqcıl şair və yazıçıları uşaqlar üçün xüsusi olaraq nəşr edilən jurnallar vasitəsilə uşaq ədəbiyyatının təməllərini artırırdılar. Xüsusilə XX əsrin əvvəllərində demək olar ki, bütün müəlliflər uşaq mövzularında əsərlər qələmə almağa çalışırdılar. Bu əsərlərin jurnallar vasitəsiylə uşaqlara çatdırılması böyük əhəmiyyət kəsb edirdi. XX əsrin əvvəllərində çıxan uşaq jurnalları uşaqların maraq dairəsini nəzərə almaqla yanaşı, uşaqların intelektual səviyyəsini artırmaq üçün onları şeir və hekayələr, rəsmlərlə gündəlik məsələlərdən də xəbərdar etməyə çalışırdılar. Uşaq jurnalları məktəblilərin dərslərində və milli-mənəvi tərbiyələrinin inkişafında müvəffəqiyyət qazanmasına kömək edirdi. Bu jurnallar uşaqların dərs kitabları qədər mühüm yer və təsirə malik olmuşdur.

Təqdim olunmuş dissertasiyada Türkiyə və Azərbaycanda XX əsrin əvvəllərində şair və yazıçıların uşaqların təhsil almasında rolu və uşaq ədəbiyyatı ilə bağlı apardığı işlərə nəzər salmaqla dövrün özünəməxsus xüsusiyyətləri haqqında təsəvvür yaradılır. Dissertasiyada uşaq ədəbiyyatının inkişafına öz bəhrəsini verən XX əsrin əvvəllərində ən mühüm və uzun müddət ərzində Türkiyədə nəşr olunan uşaq jurnalından biri olan

"Cocuq dünyası", Azərbaycanda isə "Məktəb" jurnalı tədqiqata cəlb edilmişdir.

"Cocuq dünyası" və "Məktəb" adlı jurnallarda əsərləri dərc olunan şair və yazıçılar dövrün uşaq ədəbiyyatına xidmət etməklə yanaşı, həm də günümüzə qədər gəlib çıxmış uşaq ədəbiyyatının ən qiymətli nümunələrini yaratmışdılar. Uzun müddət və mütəmadi olaraq çıxan bu jurnallar gələcək nəsillərin maariflənməsində xüsusi rol oynayırdı.

Türkiyə və Azərbaycan arasında ədəbi əlaqələrin tarixiliyi baxımından "Cocuq dünyası" və "Məktəb" jurnalları böyük əhəmiyyət kəsb edir. Belə ki, "Cocuq dünyası"nın şair və yazıçılarının əsərlərinin "Məktəb" jurnalında nəşr olunması və eləcə də yeri gəldiyində eyni mövzularda əsərlərin yazılması bunun bariz nümunəsidir. Bu mənada istər türk, istərsə də Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında və inkişafında qarşılıqlı təsirin mühüm rolu olmuşdur. Dissertasiya işi bu yönü ilə də aktuallıq kəsb edir.

Bununla belə bu dövrdə türk və Azərbaycan ədəbiyyatına məxsus uşaq ədəbiyyatı və uşaq jurnallarında əksini tapmış əsərlərin ideya-mövzu dairəsi indiyədək müqayisəli şəkildə tədqiqatlara cəlb olunmamışdır. Məhz bu xüsusiyyətlər təqdim olunan dissertasiya işinin həm Türkiyə, həm də Azərbaycan ədəbiyyatşünaslığında aktuallığını şərtləndirən başlıca amillərdəndir. Dissertasiya Türkiyə və Azərbaycan uşaq ədəbiyyatının özünəməxsusluğunun, yaranma və inkişaf mərhələlərinin, "Cocuq dünyası" və "Məktəb" jurnalları əsasında ideya-mövzu dairəsinin oxşar və fərqli cəhətlərinin və bu jurnallar arasındakı müəyyən əlaqələrin üzə çıxarılmasına xidmət edir. Bu dissertasiyada Türkiyə və Azəbaycan uşaq ədəbiyyatlarının XX əsrin ortalarına qədərki vəziyyəti haqqında ümumi məlumatlarla bərabər, həm də hər iki xalqın bədii nümunələrindəki ideya-mövzu rəngarəngliyinin təməlində yer alan ictimai-siyasi, mədəni-ədəbi hərəkatların yeri gəldikcə təhlilləri verilmişdir.

"Cocuq dünyası" və "Məktəb" jurnallarında çap olunmuş əsərlərin ideya-mövzu dairəsi tədqiqatçı üçün zəngin materiallar verməklə problemin səriştəli şəkildə çözülməsini də gündəmə gətirir. Dissertasiyada XX əsrin əvvəllərində Türkiyə və Azəbaycan uşaq ədəbiyyatındakı bədii nümunələrin ideya-mövzu rəngarəngliyi "Cocuq dünyası" və "Məktəb" jurnalları əsasında ilk dəfə olaraq geniş, sistemli və konseptual şəkildə tədqiqata cəlb edilmişdir.

**Tədqiqat işinin obyekti və predmeti.** Dissertasiyanın obyektini XX əsrin əvvəlləri türk və Azərbaycan uşaq ədəbiyyatındakı bədii nümunələrin ideya-mövzu rəngarəngliyi ("Cocuq dünyası" (1913-1918) və "Məktəb"

(1911-1920) jurnalları əsasında) təşkil edir. “Cocuq dünyası” və “Məktəb” jurnalındakı ideya-mövzu rəngarəngliyini araşdırarkən, XIX əsrin sonlarından XX əsrin ikinci onilliyinə qədər Türkiyə və Azərbaycanda yaranan ictimai-siyasi mühit içərisində uşaq ədəbiyyatının inkişaf mərhələləri nəzərdən keçirilmişdir. Hər iki jurnalda nəşr olunan ədəbi nümunələr mədəni-ədəbi, milli və mənəvi cəhətdən tədqiq edilmişdir. Tədqiqat işinin əsas obyekti Türkiyə və Azərbaycan arxivlərində yer alan “Cocuq dünyası” və “Məktəb” jurnallarının ərəb əlifbası ilə saxlanılan nüsxələri oxunaraq, burada dərc olunan ədəbi əsərlər ideya-mövzu rəngarəngliyi baxımından tədqiq edilmiş və bu yöndə mülahizələr irəli sürülmüşdür. Tədqiqat işinin predmetini “Cocuq dünyası” və “Məktəb” jurnalındakı bədii nümunələrdə ideya-mövzu rəngarəngliyinin oxşar və fərqli cəhətlərinin araşdırılıb ortaya çıxarılması təşkil etmişdir. Eləcə də bütün bunlar dövrün ictimai-siyasi hadisələrin, maarifçiliyin inkişafı fonunda verilmişdir.

**Mövzunun tədqiq tarixi.** İndiyədək Türkiyə və Azərbaycanda uşaq ədəbiyyatıyla bağlı xeyli araşdırmalar aparılmışdır. Məsələn, Azərbaycan ədəbiyyatşünaslığında bu mövzuda Qara Namazov “Azərbaycan uşaq ədəbiyyatı”, Aydın Hacıyev “Azərbaycan uşaq ədəbiyyatı tarixi”, Fikrət Seyidov “Uşaq ədəbiyyatında tərbiyə məsələləri XIX-XX əsrlər”, Əli Mirzəyəv “Uşaq ədəbiyyatına dair tədqiqlər”, Rafiq Yusifoğlu “Uşaq ədəbiyyatı” kimi müəlliflər əsərlərində uşaq ədəbiyyatıyla bağlı həm ümumi, həm də konkret məlumatlar vermişlər. Əflatun Məmmədov “Azərbaycan uşaq ədəbiyyatı (“Dəbistan”, “Rəhbər” və “Məktəb” jurnalları əsasında)”, Sevil Hüseynli “Dəbistan” və “Məktəb” jurnallarında xalq maarifi və təlim-tərbiyə məsələləri” adlı əsərində “Məktəb” jurnalını xüsusi olaraq tədqiq və təhlil predmetinə çevirməmiş fəqət jurnalda dərc olunan təlim-tərbiyə və xalq maarifiylə bağlı ədəbi nümunələri tədqiq etmişdir.

Türkiyə ədəbiyyatşünaslığında Kemal Demiray, Mustafa Ruhi Şirin, Alemdar Yalçın və Gıyasettin Aytaş, Alev Sınar Çılgın, Tacettin Şimşek, A. Ferhan Oğuzkan, Sədat Sever, Hasan Latif Sarıyüce, “Uşaq ədəbiyyatı” mövzusunda ümumi və konkret məlumatlara əsaslanaraq tədqiqat işləri aparmışlar. İsmet Kür, Cüneyd Okay kimi yazıçılar da Türkiyədə ardıcıl nəşr olunmuş ərəb əlifbası ilə yazılı uşaq jurnallarını transleterasiya edərək araşdırılmışdır. Bundan başqa İnci Enginün, Cüneyd Okay, Meral Alpay, Selçuk Çıkla, Türker Acaroğlu, Ejder Çelik, Aydın Oy və başqaları Türkiyədə uşaq ədəbiyyatı haqqında mətbuatda məqalələrlə çıxış etmişlər.

Azərbaycan şərqşünaslığında Ə. Cəfər, P. Xəlilov, C. Nağıyeva, A. Abıyev, H. Araslı, A. Nəbiyev, Q. Paşayev, V. Arzumanlı, A. Musayeva,

A. Babayev, N. Araslı, Ə. Rəsulov, X. Quliyeva, E. Quliyev, B. Osmanova, S. Qasımlı, S. Gündoğdu və bir sıra başqa alimlər ayrı-ayrı türk xalqlarının ədəbiyyatlarını öyrənmiş və ya ədəbi əlaqələrlə bağlı müxtəlif tədqiqat işləri aparmışlar. XX əsrin sonlarından etibarən yenidən artan ictimai və ədəbi əlaqələr yeni-yeni mövzuların üzə çıxmasına imkan yaradır. Məhz bu mənada apardığımız tədqiqat işi Türkiyə və Azərbaycan ədəbiyyat-şünaslığında ilk dəfə uşaq jurnalları olan "Cocuq dünyası" və "Məktəb" əsasında bədii nümunələrin ideya-mövzu dairəsi müqayisəli şəkildə tədqiqat obyektinə çevrilmişdir.

Bununla belə türkiyəli və azərbaycanlı ədəbiyyatşünaslar "Cocuq dünyası" və "Məktəb" jurnalını ayrı-ayrılıqda qismən də olsa nəzərdən keçirmişlər. Bu jurnallar bəzən günümüzə qədər elə əsaslı şəkildə diqqəti cəlb etməmişlər. Türkiyədə "Cocuq dünyası" jurnalı ilə bağlı məlumatları ilk öncə Yavuz Selim Karakışlanın 1988-ci ildə "II meşrutiyette bir çocuk dergisi: Çocuk dünyası" adıyla tarix və toplum dərgisindəki məqaləsindən öyrənirik. Sonra İsmet Kür 1991-ci və Cüneyd Okay 1999-cu illərdə yayımlanan əsərlərində bu jurnalla bağlı ümumi məlumatlar vermişlər. Ayrıca XIX əsrin sonu XX əsrin əvvəllərindəki uşaq jurnalları və xüsusən "Cocuq dünyası" jurnalı ilə bağlı bir sıra dissertasiyalar hazırlanmışdır. Məsələn, 1992-ci ildə Öztürk Emiroğlu "Tanzimattan 1928'e kadar yayımlanan çocuk gazete ve dergileri üzerine bir inceleme", 2002-ci ildə Nihat Bayat "Eski harfli çocuk dergilerinin çocuk eğitimindeki yeri", Hüseyin Şimşek "Tanzimat ve mutlakıyet dönemi çocuk dergilerinin eğitim açısından incelenmesi", 2007-ci ildə Ali Gurbetoğlu "II məşruyyət döneminde yayınlanan çocuk dergilerinin eğitim açısından incelenmesi (1908-1918)" və 2008-ci ildə isə Başak Özdemirin "Çocuk dünyası dergisinde yer alan çeviri metinlerin indeksi ve değerlendirilmesi" adlı tədqiqat işlərinin aparıldığını görmək mümkündür.

Azərbaycanda uşaq ədəbiyyatında ideya, mövzu, sənətkarlıq xüsusiyyətləri və "Məktəb" jurnalıyla bağlı bir sıra çalışma nəzərə çarpmaqdadır. 1958-ci ildə M. Hüseyn "Azərbaycan uşaq ədəbiyyatında əmək mövzusu", 1960-cı ildə Ç. Əhmədov "Uşaq ədəbiyyatında ideya və sənətkarlıq məsələləri", P. Allahverdioğlu "Məktəb jurnalında təlim-tərbiyə məsələlərinə dair", 1967-ci ildə isə R. Rza "Uşaqlar üçün ədəbiyyatın ideya-bədii səviyyəsini yüksəltmək uğrunda" adlı məqalələri dərc etmişdilər. 1977-ci ildə Ə. Məmmədov "Azəbaycan uşaq ədəbiyyatı ("Dəbistan", "Rəhbər" və "Məktəb" jurnalları əsasında)" adlı əsərini çap etdirərək bu jurnallar haqqında geniş məlumat vermişdir. 1995-ci ildə isə S. Hüseynli "Dəbistan" və "Məktəb" jurnallarında xalq maarifi və təlim-

tərbiyə məsələləri" adlı əsərdə isə nəşr olunan məqalələrin pedaqoji xüsusiyyətləri təhlil olunmuşdur. "Məktəb" jurnalıyla bağlı Azərbaycanda Qafqaz Universitetinin Türk dili və ədəbiyyatı kafedrasında 2011-ci ildə Sait Şimşek, Salih Zeki Meriç və Gülçin Özmaden magistr dissertasiyaları yazmışlar. Aparılan bu tədqiqatlar jurnalın kataloqunun tərtibi ilə bağlı olmuşdur.

Türk ədəbiyyatşünaslığında "Məktəb" jurnalı ilə bağlı hər hansı konkret araşdırma aparılmamışdır. Anoloji olaraq Azərbaycan ədəbiyyatşünaslığında da "Cocuq dünyası" dərgisilə əlaqəli heç bir araşdırma yoxdur. Qeyd etdiklərimiz göstərir ki, tədqiq etdiyimiz mövzu həm Türkiyə həm də Azərbaycan ədəbiyyatşünaslığında indiyə qədər müqayisəli şəkildə işlənilməmiş, tədqiqat obyektinə çevrilməmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi adından da aydın olduğu kimi "Cocuq dünyası" və "Məktəb" jurnallarında nəşr olunan ədəbi nümunələri ideya-mövzu baxımından tədqiq etməkdən ibarətdir. Türkiyə və Azərbaycan uşaq ədəbiyyatının formalaşma və inkişaf mərhələlərini müqayisəli şəkildə üzə çıxarmaq və bununla yanaşı, "Cocuq dünyası" və "Məktəb" jurnalını, bu jurnallarda əsas yer tutmuş bədii nümunələrdəki ideya-mövzu dairəsini XX əsr Türkiyə və Azərbaycanda ədəbi, ictimai-siyasi hadisələr fonunda öyrənmək də dissertasiyada qarşıya qoyulmuş əsas məqsədi təşkil edir.

Dissertasiya işində bu nəzərdə tutulan məqsədlərə nail olmaq üçün tədqiqatın əsas vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanda ictimai-siyasi, mədəni-ədəbi mühit haqqında məlumat vermək;
- XX əsrin əvvəllərində Türkiyə və Azərbaycandakı uşaq ədəbiyyatının mərhələli inkişafında mətbuatın rolunu və bu yolda aparılan işləri müəyyənləşdirmək;
- Əsərləri "Cocuq dünyası" və "Məktəb" jurnallarında nəşr olunan şair və yazıçıların fəaliyyəti haqqında məlumat vermək;
- "Cocuq dünyası" və "Məktəb" jurnallarında dərc olunan ədəbi nümunələrin janr xüsusiyyətlərini müəyyənləşdirmək;
- "Cocuq dünyası" və "Məktəb" jurnallarındakı bədii nümunələrin ideya-mövzu rəngarəngliyinin özünəməxsusluğunu tədqiq və təsnif etmək;
- Hər iki jurnalın dil və üslub xüsusiyətlərini müqayisəli şəkildə təhlil etmək.

**Tədqiqat işinin elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi ilk növbədə onunla müəyyən olunur ki, Azərbaycan ədəbiyyatşünaslığında, o cümlədən Azərbaycan şərqşünaslığında "Cocuq dünyası" və "Məktəb"

jurnalları ilə bağlı uşaq ədəbiyyatının inkişafı baxımından indiyədək müqayisəli şəkildə elmi tədqiqat işi aparılmamış, hər iki jurnalda nəşr olunan ədəbi nümunələrin ideya-mövzu dairəsi təhlilə cəlb edilməmişdir. Bu dissertasiya işində ilk dəfə olaraq Türkiyə və Azərbaycan ədəbiyyatlarında XX əsrin əvvəllərindəki uşaq ədəbiyyatının mərhələli olaraq tarixi inkişafı, dövrün ictimai-siyasi, mədəni- ədəbi mənzərəsi, uşaq ədəbiyyatının yaranması və formalaşması, uşaq ədəbiyyatıyla bağlı nəşr olunmuş əsər və jurnalların təşəkkülü, dövrün şair və yazıçılarının uşaq ədəbiyatının inkişafına verdiyi töhvələr ilk dəfə müqayisəli və sistemli şəkildə təhlil edilmişdir. Tədqiqatın digər yeniliyi də ondadır ki, "Cocuq dünyası" və "Məktəb" jurnallarında dövrün qabaqcıl yazıçıları ilə yanaşı, bu sahəyə öz töhfəsini verməyə çalışan nisbətən az tanınan və hətta bu gün adları unudulan yazıçılar, müəllimlər, hətta tələbələr də bu tədqiqat sayəsində üzə çıxarılmışdır.

Bütövlükdə "Cocuq dünyası" və "Məktəb" jurnalındakı bədii nümunələrin ictimai-siyasi, ədəbi mühit içində ideya-mövzu xüsusiyyətləri ortaya çıxarılaraq, müqayisəli şəkildə təhlil edilmiş və uşaq ədəbiyyatının inkişafındakı yeri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti.** Tədqiqat işi bir çox cəhətdən elmi əhəmiyyətə malikdir ki, bunlar aşağıda qeyd olunur:

Tədqiqat işi XIX əsrin sonlarından etibarən başlayaraq, XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanda gedən ictimai-siyasi, ədəbi-mədəni mühitin və maarifçilik hərəkatının araşdırılmasında, Türkiyə və Azərbaycan uşaq ədəbiyyatının inkişaf mərhələlərini tədqiq edərkən dövrün yazıçılarının uşaq ədəbiyyatı sahəsindəki fəaliyyətini ortaya çıxarılmasında "Cocuq dünyası" və "Məktəb" jurnallarında nəşr olunan bütün şair və yazıçıların uşaq ədəbiyatındakı xüsusi mövqeyinin müəyyənləşdirilməsində önəmli rol oynaya bilər.

Əsər eyni zamanda tətbiqi və praktik xarakterlidir. Belə ki, bu əsərdən ali məktəblərin şərqşünaslıq, filologiya və pedagoji fakultələrində tədris prosesində, seminar məşğələlərin keçirilməsində, habelə mühazirələrin oxunmasında elmi material kimi istifadə oluna bilər. Həmçinin adları çəkilən jurnallarla bağlı aparılacaq tədqiqatlarda, uşaq ədəbiyyatı və müqayisəli ədəbiyyatşünaslığın öyrənilməsində, Türkiyə və Azərbaycan ədəbi əlaqələrinin araşdırılmasında, dərslik, dərs vəsaitləri və metodik kitabların hazırlanmasında dissertasiyada mənbə kimi istifadə oluna bilər.

**Dissertasiyanın nəzəri-metodoloji bazası.** Dissertasiya işi tarixi-müqayisəli və nəzəri yanaşma prinsipindən istifadə edilərək hazırlanmışdır. Bundan başqa araşdırma zamanı ədəbi mətnlərin təhlilində və maarifçi-

ədəbi ideyaların öyrənilməsində müqayisəli tədqiqat metodlarına üstünlük verilmişdir.

Dissertasiyada "Cocuq dünyası" və "Məktəb" jurnalları əsasında türk və Azərbaycan uşaq ədəbiyyatının tarixi inkişafı, nəzəri-fəlsəfi təməlləri, eləcə də buradakı bədii nümunələrin ideya-mövzu xüsusiyyətləri müəyyənləşdirilmişdir. Bu baxımdan hər iki jurnalda ortaya çıxan oxşar və fərqli cəhətlər tədqiqat obyektinə çevrilmişdir. "Cocuq dünyası"nda (1913-1918) və "Məktəb" jurnalında (1911-1920) bütün bədii nümunələrin ideya, mövzu, janr istiqamətləri, dil və üslub xüsusiyyətləri, eləcə də hər iki jurnalın uşaq ədəbiyyatlarına təsiri təhlil edilmişdir. Təhlil prosesində jurnallardakı bədii nümunələrindən və uşaq ədəbiyyatının inkişafında önəmli yerə malik olan tarixi, elmi-nəzəri qaynaqlardan faydalanılmışdır. Hər iki jurnaldakı ədəbi nümunələr analitik təhlil metodu ilə araşdırılmışdır. Araşdırma zamanı tarixi-müqayisəli metotdan istifadə olunmuşdur. Əsərdə Azərbaycanda və Türkiyədə aparılan elmi və ədəbi-tarixi araşdırmaların əsas nəticələrinə istinad olunmuşdur.

Görkəmli alim və ədəbiyyatşünasların uşaq ədəbiyyatı, eləcə də "Cocuq dünyası" və "Məktəb" jurnallarına dair araşdırmalarındakı elmi prinsiplərindən dissertasiyanın yazılmasında istiqamətverici qaynaq kimi istifadə olunmuşdur.

**İşin aprobasiyası.** Dissertasiya işinin mövzusu Qafqaz Universite tinin "Türk dili və ədəbiyyatı" kafedrasında yerinə yetirmişdir.

Dissertasiya işinin əsas müddəa və nəticələri müəllifin bir sıra beynəlxalq elmi-praktik konfranslardakı məruzələrində, eləcə də, müxtəlif elmi məcmuələrdə və beynəlxalq konfransların materiallarında dərc olunmuş məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, metodologiyası, öyrənilmə səviyyəsi, nəzəri və praktik əhəmiyyəti əsaslandırılır, işin aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Tədqiqat işinin birinci fəsli **"XX əsrin əvvəllərində Türkiyə və Azərbaycan ictimai-siyasi, ədəbi mühiti və uşaq ədəbiyyatı"** adlanır və üç yarımfəslə bölünür. **Türkiyə və Azərbaycanda ictimai-siyasi və ədəbi mühit** adlanan birinci yarımfəsildə XX əsrin əvvəllərində Türkiyə və

Azərbaycandakı ictimai, siyasi və ədəbi mühitin müxtəsər mənzərəsi verilmişdir.

XIX əsrin sonu və XX əsrin əvvəllərində ictimai-siyasi, iqtisadi və eləcə də ədəbi proseslər bütün dünyada olduğu kimi Türkiyə və Azərbaycanda da qərbləşmə istiqamətində inkişaf edirdi. Çünkü Avropada siyasi, ictimai və iqtisadi sahələrdə əldə olunan nailiyyətlər Şərqdə də bir sıra yeniliklərə səbəb olmuşdur. Məhz bu səbəbdən də Osmanlı imperiyası XIX əsrdə bütün Şərqdə olduğu kimi, Qərbdəki dəyişikliyin və yeniliyin təsiri altında idi. XIX əsrin sonlarında baş verən dəyişikliklər XX əsrin əvəllərində də öz təsirini göstərir və hadisələr davam edirdi. "XIX əsrdə başlayan bu dəyişikliyin təsiri XX əsrin ilk illərində də görünür. Bu təsirlər nəticəsində baş verən hadisələr dövlətin taleyini də müəyyənləşdirir".[1]

Osmanlı dövlətində XX əsrin əvvəlləri xüsusilə siyasi hadisələrlə zəngin bir dövrdür. Bu əsrin əvvəllərində baş verən Trablis, Balkan, Birinci Dünya müharibələri kimi olduqça böyük siyasi və hərbi qarşıdurmalar Osmanlı İmperiyasının zəifləməsinə səbəb olmuşdur. "Balkanlardakı torpaqlardan axın-axın İstanbula gələn qaçqınların başına gələn ağır, faciəli hadisələr Türkiyə dövri mətbuatinda əks olunur və bu da hiddət və nifrətin artmasına, daha geniş kütlələr arasında yayılmasına səbəb olurdu. Cəmiyyətdə böyük bir qisas, intiqam və nifrət duyğusu yaranırdı".[2] Baş verən bu proseslər nəticəsində cəmiyyətdə millətçilik və türkçülük duyğuları daha da güclənir. XX əsrə hakim olan millətçilik-türkçülük ideyası əsasən ədəbiyyat sahəsində özünü aydın şəkildə büruzə verirdi. Dövrün siyasi və sosial şərtləri milliyətçi və türkçülük yanaşma zərurətini tələb edirdi. Bunun nəticəsində uzun illər öz təsirini davam etdirən "milli ədəbiyyat" adlı yeni bir ədəbi cərəyan yaranır. "Milli ədəbiyyat XIX əsrin və XX əsrin ilk rübündəki Osmanlı türk cəmiyyətinin sosial, siyasi, ideoloji, ədəbi, mədəni və iqtisadi həyatının ən çətin vaxtlarında yaranmış, formalaşmış və inkişaf etmişdir.[3] Milli ədəbiyyat cərəyanı Əbubəkr Hazım, Ömər Seyfəddin, Əhməd Hikmət, Aka Gündüz, Məmməd Əmin, Rza Tofiq, Ziya Gökalp, Ömər Seyfəddin, Əli Canib və başqa bu kimi şair və yazıçıların yazdıqları bir çox əsərlərlə meydana gəlmişdir.

XIX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi və ədəbi mühiti xeyli çətinliklərlə qarşılayırdı. Belə ki, Azərbaycanda siyasi baxımdan tam bir birlik mövcud deyildir. Ölkə xanlıqlardan ibarətdir.

[1] http://www.ataturkinkilaplari.com/it/81

[2] Osmanlı Ansiklopedisi: 12 cilddə, II c., Ankara: Yeni Türkiye Yayınları,1999, 9244 s

[3] II. Meşrutiyet Devri Türk Edebiyatı, Ankara: Akçağ, 2007, 639 s.

Mövcud vəziyyət dövlətin siyasi, hərbi, iqtisadi cəhətdən zəif olması üçün zəmin yaratmışdı. XIX əsr, ümumiyyətlə, Azərbaycanda rus çarizminin mürtəce siyasətinin hökm sürdüyü bir dövr idi. Bu dövrdə rusların müsəlman əhali arasında məskunlaşdırılması və xristian təbəənin "ön plana çıxarılması" ardıcıl siyasət kimi həyata keçirilmişdir. Beləliklə də müsəlmanlar bilərəkdən arxa plana atılırdı.

XX əsrin əvvəllərində də Azərbaycan bir müstəmləkə ölkə kimi bir çox çətinliklərlə üz-üzə dayanır. Xalq çarizm və feodalizmin ağır zülmü altında əzilir və inləyir. Yoxsul əhali, xüsusən Bakı başda olmaqla, Gəncə, Şəki, Tovuz, Gədəbəy, Naxçıvan kimi böyük şəhərlərə üz tuturdu. Azərbaycanda sosial həyatın ağırlığı insanların kənd və qəsəbələrdən böyük şəhərlərə köç etməsinə səbəb olmuşdur. Hətta bəzi insanlar mövsümi fəhlə kimi Bakıya gəlib işləyirdilər. Bakıda yaşayanlar çox aşağı maaşla fəhləlik edir, bu isə onlara minimal dolanışıqlarını təmin etməyə imkan vermirdi. Bu dövrdə Azərbaycan xalqının həyat şəraiti olduqca ağır idi.

Azərbaycanda siyasi baxımdan 1905-ci il inqilabının böyük təsiri var idi. Çarizim rus-yapon müharibəsindən sonra daha yumşaq siyasət yürütmək məcburiyyətində qalmışdır. Çarın belə bir siyasət yürütməsinin əsas səbəbi ölkə daxilində, istər rus və istərsə də digər xalqların ziyalı nümayəndələrinin zülmə qarşı çıxmasının böyük rolu olmuşdur. Azərbaycan bu dövrdə siyasət tarixi baxımdan xeyli inkişaf edə bilmişdir. XX əsrin ilk iki onilliyini milli hərəkatın, iqtisadi-siyasi inkişafın, ictimai-siyasi, ədəbi, kulturoloji, maarifçi düşüncənin intibah səviyyəsində təşəkkülünü şərtləndirən Azərbaycan tarixinin ən zəngin dövrü olmuşdur.[1]

XX əsrin əvvəllərindəki "siyasi yumşalma" mətbuatda da öz əksini tapırdı. 1905-1907-ci illər inqilabı mətbuatın inkişafı sahəsində çarizmi müəyyən güzəştlərə getməyə məcbur edir. "Həmin illərdə Bakıda Azərbaycan dilində 11 yeni mətbuat orqanı meydana çıxır"[2]. Məhz XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik hərəkatı geniş vüsət almağa başladı. Bu da mətbuatın inkişafına öz müsbət təsirini göstərdi. Mətbuatın inkişafı nəticəsində azərbaycanlı ziyalılar öz fikirlərini rahat şəkildə söyləmək fürsəti qazandılar. Beləliklə, bir çox ziyalıların elmi və ədəbi

---

[1] Əhmədov B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi: 3 cilddə, I c.,Bakı: Elm və Təhsil, 2011, 480 s.

[2] Azərbaycan tarixi: 7 cilddə, V c., Bakı: Elm, 2008, 696 s.

yaradıcılığı qəzet və jurnallar vasitəsilə ictimaiyyətin nəzərinə çatdırılır, milli mədəniyyətin öyrənilməsində və yeni nəslinin yetişməsində böyük rol oynayır. "Həyat" (1905-1906), "Füyuzat" (1906-1907), "İrşad" (1905-1908), "Molla Nəsrəddin" (1906-1931) və s. bu kimi qəzet və jurnallar XX əsrin əvvəllərində nəşr olunur və Azərbaycanın sosial-siyasi və ədəbi-ictimai həyatına istiqamət verir və onun inkişafına böyük təsir göstərir.

XIX əsrin ikinci yarısında Azərbaycanın içtimai həyatında yeni ideoloji və ədəbi cərəyanlarda meydana gələn innovativ proseslər yeni bir istiqamətə yönəlir. Bundan sonra Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatı sisteminə daxil olur. Xüsusilə Avropa və rus ədəbiyyatı Azərbaycan ədəbiyyatına öz müsbət təsirini göstərir. Yeni ədəbi janrların yaranması zərurəti meydana çıxır. Bu illərdə Azərbaycanda Türkiyədəki Tənzimat dövründə meydana gələn prosesə bənzər hadisələr baş verir. "Qərbdən demokratiya, milliyyət, azadlıq kimi məfhumlarla yanaşı, yeni ədəbi növlər də gəlir.[1]

Azərbaycanda sürətlə inkişaf edən dövrü mətbuat getdikcə vüsət alır və XX əsrin ədəbi proseslərində aparıcı yer tutur. Mətbuat vasitəsiylə sürətlə inkişaf edən Azərbaycan ədəbiyyatında romantizmlə yanaşı realizmin də inkişafını və maarifçi-ədəbi hərəkatın yaranmasını qeyd etmək lazımdır.

Tədqiqat işinin birinci fəslinin **"Türkiyə və Azərbaycan uşaq ədəbiyyatının inkişafı və mətbuatın rolu"** adlı ikinci yarımfəslində Türkiyə və Azərbaycan da uşaq ədəbiyyatının inkişafından bəhs edildikdən sonra bu inkişafda mətbuatın rolu haqqında məlumat verilmişdir.

Dünyada uşaq ədəbiyyatının ilk örnəklərini şifahi xalq ədəbiyyat nümunələri təşkil edir. Uşaq ədəbiyyatının ilk nümunələrinin şifahi şəkildə olduğunu desək yanılmarıq. "Uşaq ədəbiyyatı yazılı ədəbiyyatın bir qolu kimi ayrıca şəkildə formalaşana qədər folklor ədəbiyyatının mühüm hissəsi olmuşdur. Bu şifahi ədəbiyyat nümunələri, daha sonra toplanaraq uşaq ədəbiyyatının əsas materialına çevrilmişdir"[2]. Bunlar, ümumiyyətlə, uşaqlara əxlaq davranışları və dini qaydaları öyrədir. Nağıllar, dastanlar, şeirlər, əfsanələr həm uşaqların, həm də böyüklərin faydalanacağı ədəbi nümunələrdir. Bu janrlarda ümumi olaraq uşaq ədəbiyyatı fərqləndirilməsə də, həm toxunduğu mövzular, həm də ifadə tərzinə görə uşaqların marağını cəlb edirdi. "Ayrıca onu da qeyd edək ki dünyada uşaq ədəbiyyatının

---

[1]Türk Dünyası Edebiyatları. İstanbul: MEB, 1998, , 735 s.
[2]Yalçın A. Aytaş G. Çocuk Edebiyatı. Ankara: Akçağ, 2008, 286 s.

formalaşmasında mətbəələr və elmi-pedaqoji tədqiqatlar böyük rol oynamışdılar”.[1]

Türkiyədə uşaq ədəbiyyatının inkişafına nəzər saldıqda görürük ki, digər xalqların ədəbiyyatında olduğu kimi, türklərdə də uşaqlar üçün olan ilk ədəbi nümunələrə şifahi xalq ədəbiyyatında rast gəlirik. Nağıl, dastan, şeir, tapmaca, əfsanə, lətifə, yanıtlmac və s. kimi janrlar bu baxımdan səciyyəvidir. Bunlar birbaşa sadəcə uşaqlar üçün yaradılmasa da, uşaqların sevdiyi və xoşladığı tərzdə olan nümunələrdir. Xüsusilə uşaqların təhsil aldıqları mühitə, olduqları cəmiyyətə uyğunlaşmaları üçün toplumun adət və ənənələrindən bəhs edən, eləcə də mənəvi dəyərləri əks etdirən bu əsərlər diqqətəlayiqdir.

“Türkiyədə şifahi ədəbiyyat nümunələrindən sonra uşaqlar üçün yazılmış kitablar arasında Nabinin və Sünbülzadə Vehbinin öz uşaqlarına nəsihət olaraq yazdıqları “Xeyriyyə” və “Lütfiyyəyi-vehbi” adlı əsərlər yer alır”.[2] Nabi və Sünbülzadə Vehbi tərəfindən qələmə alınan hər iki məsnəvi uşaqlar üçün nəsihət məzmunu daşısa da, bu əsərlər dil və üslub baxımından istər yazıldığı dövrdə, istərsə də sonrakı dövrlərdə uşaqların oxuyub-başa düşə biləcəkləri bir dildə qələmə alınmamışdır. Beləcə bu əsərlərin uşaqlar tərəfindən oxunub anlaşılmadığı məlum olur.

Avropa tərzində yazılmış uşaq ədəbiyyatının inkişafı Türkiyədə XIX əsrin ikinci yarısına təsadüf edir. Əslində bu hadisə uşaqların cəmiyyətdə ayrıca bir fərd olaraq nəzərə alınmasından qaynaqlanır. Beləliklə, dəyişən və inkişaf edən maarifçilik hərəkatı ilə birlikdə uşaq ədəbiyyatının formalaşması məsələsi də ortaya çıxmışdır. Türkiyədə uşaq ədəbiyyatının meydana gəlməsi təhsil məsələsi ilə bağlı ciddi islahatların aparıldığı Tənzimat dövründən başlanır. “Münif Paşa’nın “Əhəmiyyəti-tərbiyəyi-sıbyan”ı, Ziya Paşa’nın “Emil tərcüməsi”, Sadiq Rifat Paşa’nın “Risaleyi-əxlaq”ı və “Tərbiyətül-ətfal risaləsi” əsərləri didaktik xarakter daşıyırdı və uşaqlara əxlaqi dəyərləri təlqin edirdi. Fəqət bu əsərlərdə istifadə olunan dilin sadəliyi, cümlələrin yığcamlığı diqqət çəkir. Buna görə də dövründə qələmə alınan digər əsərlərdən seçilir”.[3] Həmçinin Tənzimatın elanından sonra (1839) təhsil sahəsində görülən işlər, nəşr olunan əsərlər dolayı yolla olsa da, uşaq ədəbiyyatına da öz töhfəsini verir. Ayrıca bu

---

[1]Çılgın A. S. Çocuk Edebiyatı. İstanbul Morpa, ,2007. 232 s.

[2]Çocuk Edebiyatı Yıllığı 1987 // yayına hazırlayan: Mustafa Ruhi Şirin, İstanbul: Gökyüzü, 1987, 690 s.

[3]Yeni Türk Edebiyatı Antolojisi I, İstanbul: İstanbul Üniversitesi, 1974, 622 s.

dövrdə uşaq ədəbiyyatının inkişafına təkan verən mühüm bir hadisə də Qərbdə uşaqlar üçün olan bəzi romanların türkcəyə tərcümə olunmasıdır. “Bu əsərlər uşaqlara uyğun tərcümə olunmaqla yanaşı, dünya uşaq ədəbiyyatı nümunələrdən ehtiyacları nəzərə alınaraq çevrilməklə yanaşı, dünya uşaq ədəbiyyatı nümunələrindən bəzilərinin Türkiyədə də tanınıb yayılmasına səbəb olmuşdur”.[1]

Tənzimat dövründə yaşamış Kayserili Həkim Rüşdünün “Nuhbətül-ətfal” (“Uşaqların sevimlisi”) adlı əsərində hekayələr və təmsillər yer alır. Demək olar ki, bu əsər o dövrdə sadəcə uşaqlar üçün yazılmış ilk əsərdir. Tənzimatın elanından sonra uşaq ədəbiyyatı sahəsində ən mühüm məqamlardan biri də uşaqlar üçün dövri nəşrlərin ortaya çıxmasıdır. Bunlardan ilki 1869-cu ildə nəşr olunan “Müməyyiz” (“Yaxşını pisdən ayıran”) adlı uşaq qəzetidir.

II Məşrutiyyət dövründə sürətlə inkişaf edən uşaq ədəbiyyatı o dövrün aparıcı ədəbi hadisəsi olan Milli ədəbiyyat cərəyanının əsas xüsusiyyətlərini daşıyır. Burada milli dəyərlərə yönəlmə məsələsi xüsusi ilə diqqət çəkir və elə buna görə də türkçülük anlayışı uşaq ədəbiyyatında da geniş yer tutur. XIX əsrin sonları və XX əsrin əvvəllərində, xüsusilə, Əhməd Rasim, Əhməd Midhət, Ziya Göyalp, Ömər Seyfəddin, Tofiq Fikrət, Əli Əkrəm Bolayır, İbrahim Ələəddin Gövsa, Əli Ülvi Elövə və Aka Gündüz kimi uşaq ədəbiyyatını formalaşdıran yazıçılar uşaq ədəbiyyatı tarixində də mühüm yer tutur.

Türkiyə uşaq ədəbiyyatının formalaşmasında ən mühüm amillərdən biri də uşaq qəzet və jurnallarının nəşridir. Uşaqlara məxsus ilk qəzet və jurnalların dərc olunduğu tarixdən yeni əlifbaya keçən mərhələyə qədərki (1869-1928) müddətdə fəaliyyət göstərən 50 adda qəzet və jurnalın mövcudluğu məlumdur. Bu qəzet və jurnallar içərisində ən uzun ömürlü olanları: “Cocuqlara məxsus qəzet” (1896-1908) 626 sayı, “Cocuqlara rəhbər” (1897-1901) 166 sayı, “Cocuq dünyası” (1913-1918) 94 sayı, “Tələbə dəftəri” (1913-1918)68 sayı, “Cocuq duyğusu” (1913-1914) 61 sayı, “Bizim məcmuə” (1922-1927) 74 sayı, “Yeni Yol” (1923-1926) 113 sayı çıxan məcmuələridir. Türkiyədə belə geniş miqyaslı və uzun ömürlü jurnallarla bərabər, ömrü 10 sayını keçməyən uşaq jurnalları da nəşr olunmuşdur. Bu məcmuələr uşaq ədəbiyyatının inkişafında xüsusi yer tutmuşdur.

---

[1] Demiray K. Türkçe Çocuk Edebiyatı. İstanbul: Maarif Basımevi, 1954,172 s.

Azərbaycanda maarifçi-ədəbi hərəkatın XIX əsrin başlarından etibarən canlanması nəticəsində uşaq ədəbiyyatının daha da inkişaf etdiyi görülür. "XIX əsrin ortalarından etibarən Azərbaycanda mədəni-maarif və məktəb işləri xeyli canlanmağa başlamışdır". [1] XX əsrin əvvəllərində Azərbaycanda uşaq ədəbiyyatının təşəkkülü, əsasən, aşağıdakı amillərlə bağlıdır:

1.Yeni dünyəvi məktəblərin açılması ilə;

2.Yeni dərsliklərin və proqramların yazılması ilə;

3.Ana dilində bilavasitə uşaq əsərlərinin yazılması ilə bağlı olduğunu qeyd etmək lazımdır.[2]

XIX əsrin sonlarına doğru çarizmin ruşladırma siyasəti hər sahədə olduğu kimi Azərbaycan uşaq ədəbiyyatının inkişafına mənfi yöndən təsir göstərmişdir. Çarizmin rus olmayan xalqları ruslaşdırma siyasəti, məktəb və maarifçiliyin bu siyasət üzərində qurulması, həmçinin başqa ictimai-siyasi maneələr üzündən bütün Rusiyada yaşayan müsəlman-türk xalqlarının həyatında olduğu kimi, Azərbaycanda da uşaq ədəbiyyatı, uşaq mətbuatı, xüsusilə, maarif və məktəb işi ləng inkişaf edirdi.

XIX əsrin sonlarında S.M. Qənizadən "Sovqat", "Çıraq", "Nübar", "Cami-mərifət" adlı uşaq jurnallarının çıxarılmasına çalışsa da bu təşəbbüsə senzura rejimi mane olmuş və bu dövrdə uşaq ədəbiyyatının inkişafı üçün ciddi əngəl yaratmışdır.

1905-ci il islahatları nəticəsində XX əsrin əvvəllərindən etibarən Azərbaycanda uşaq jurnallarının da nəşrinə başlanır. Bu jurnallar Azərbaycan uşaq ədəbiyyatının formalaşmasına və xüsusi bir sahəsi kimi inkişaf etməsinə təkan verir. Bu dövrdə H. Qaradaği, S. Vəlibəyov, Ə. Cavanşir, S. M. Qənizadə, C. Məmmədquluzadə, M. Ə. Sabir, A. Səhhət, F. Köçərli, R. Əfəndiyev, A. Şaiq, N. Nərimanov, Ə. Haqverdiyev, H. Cavid, S. S. Axundov və başqa bu kimi böyük ədəbiyyat ustadları uşaq ədəbiyyatının inkişafına öz töhfələrini verirlər. Bu sənətkarların bəziləri sırf uşaq ədəbiyyatının inkişafı üçün bütün yaradıcılıqlarını bu işə sərf etmişlər. "Onlar həmçinin uşaq jurnallarının nəşri ilə məşğul idilər. Bəziləri proqram və dərslik yazırdılar".[3] Azərbaycanda istər uşaq ədəbiyyatı, istərsə

---

[1]Məmmədov Ə. Azərbaycan Uşaq ədəbiyyatı: "Dəbistan" "Rəhbər" və "Məktəb" jurnalları əsasında. Bakı: Elm, 1977, 160 s

[2]Mirzayev Ə. Uşaq ədəbiyyatına dair tədqiqlər: Məqalələr toplusu. Gəncə: İlkin, 2003, 142 s.

[3]Hacıyev A. Azərbaycan uşaq ədəbiyyatı tarixi. Bakı: Təhsil, 2004, 248 s.

də uşaq mətbuatı bu cür ziyalı və təəssübkeş ədiblərin sayəsində təşəkkül etmiş və formalaşmışdır.

XX əsrin əvvəllərində Azərbaycan uşaq ədəbiyyatı sahəsində ən mühüm inkişaf uşaq jurnallarının nəşri ilə bağlıdır.

"Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907) və "Məktəb" (1911-1920) jurnalları ilk uşaq mətbuat organları kimi milli uşaq ədəbiyyatının inkişafına mühüm təsir göstərir. Dövrün qabaqcıl ziyalıları yazıçılar, müəllimlər və tərcüməçilər bu jurnallarda yaxından çıxış edirdilər.[1] Bu jurnalların vəzifəsi əsasən üç hissədən ibarət idi. Bunlardan birincisi, uşaqların təlim-tərbiyəsində iştirak etmək, ikincisi, Azərbaycan məktəblərində öyrədiləcək ədəbiyyat dərsləri üçün milli-mənəvi dəyərləri tərənnüm edən ədəbi nümunələri hazırlamaq, üçüncü, uşaqlara məxsus ədəbiyyatın formalaşdırılmasına xidmət etmək.

Tədqiqat işinin birinci fəslinin **"Cocuq dünyası" və "Məktəb" jurnallarının nəşr problemləri"** adlanan üçüncü yarımfəsildə bu jurnalların nəşri haqqında məlumat verilmiş və onların bütün sayları tədqiq edilmişdir.

"Cocuq dünyası" jurnalı 27 mart 1913 (14 mart 1329) cü ildə fəaliyyətə başlamışdır. Jurnalın baş redaktoru Tevfik Nurettin idi. Jurnalın üz qabığında "Cocuq dünyası" adı qeyd olunmuşdur. Başlığın altında "Uşaqların dünyagörüşünün artırılmasına xidmət edir.Həftədə bir dəfə çıxır" sözləri yer alır. Bu, onu göstərir ki, həqiqətən də jurnalın əsas məramı uşaqların dünyagörüşünün artırılmasına xidmət etmək olmuşdur. Jurnalın adının sol tərəfində ünvan yerinə "Müraciət yeri Bab-ali küçəsi, 77 nömrəli türk evi kitabxanasında "Cocuq dünyası" redaktorluğu yazılmışdır". Bu da "Türk ocağı" dərnəyi ilə jurnal arasında sıx əlaqələrin mövcudluğundan xəbər verirdi. Bu yazının altında "illiyi Osmanlı dövləti üçün 15 quruş, Rusiya üçün 2 rubl, başqa yerlər üçün isə 5 frank" yazılmışdır. Bu ifadələr jurnalın sadəcə Osmanlı dövləti içində deyil, xarici ölkələrdə də satıldığını bildirir. Jurnalın bir neçə nüsxəsi Azərbaycan Respublikasının paytaxtı Bakıda AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır.

"Cocuq dünyası" jurnalının 94 sayı nəşr olmuşdur. 1913-1914-cü illərdə jurnalın 79-cu sayı çıxarılır. Bu saydan sonra məcmuənin nəşrinə bir müddət ara verilir. Jurnal müntəzəm şəkildə nəşr olunsa da, 79-cu ilə 80-ci buraxılışları arasında 4 il fasilə olmuşdur. Belə ki, jurnal 1918-ci ildə "80-1" nömrəsilə yenidən nəşrə başlamışdır. Bu müddət ərzində nəşrə fasilə

[1]Namazov Q. Azərbaycan Uşaq Ədəbiyyatı, Bakı: Bakı Üniversiteti, 2007, 444 s.

verilməsinin səbəbi jurnalın müdiri Tofik Nurəddinin hərbi xidmətə getməsidir. 1918-ci ildən etibarən “80-1” nömrəsi ilə fəaliyyətə başlayan jurnalın 15 buraxılışı nəşr olunur. Bu müddətərzində jurnalın baş redaktorluğunu və sahibliyini müəllim Əhməd Xəlil bəy həyata keçirmişdir. Jurnalın səksəndən doxsan dördə qədərki buraxılışlardan bəziləri (84,85,86,87,88,89,90,91) bizə gəlib çatmamışdır. Məcmuənin Türkiyə Kitabxanalarındakı kataloqlarında da bu saylar yoxdur. 94-cü buraxılışın sərlövhəsinin altında, sol tərəfdə “Cocuq dünyası bu nüsxədən sonra bir müddət çıxmayacaqdır” sözləri qeyd edilmişdir.

“Məktəb” Azərbaycanda XX əsrin əvvəllərində nəşr olunmuş ən uzun ömürlü uşaq jurnalıdır. Bu dövrlərdə Azərbaycanda maarifçi-ədəbi hərəkatın inkişafı bu cür uşaq jurnallarının çıxmasına və nəşrinin davam etməsinə böyük təkan vermişdir. Azərbaycanın maarifpərvər ziyalıları A. Səhhət, R. Əfəndiyev, S. S. Axundov, N. Nərimanov, A. Şaiq, S. M. Qənizadə və başqa bu kimi şəxsiyyətlər mühüm rol oynamışlar. “Məktəb” jurnalında dövrün maarifçi ədəbiyyat xadimləri, pedaqoqları öz əsərlərini nəşr etdirirdilər. “Məktəb” jurnalı XX əsrin əvvəllərində, Azərbaycanda konkret sinif-dərsdən kənar oxu vərdişlərini təmin edən, balacaların təlim-tərbiyəsini istiqamətləndirən yeganə mətbuat orqanıdır.

“Məktəb” 1911-1920-ci illər arasında Qafur Rəşad Mirzəzadə və Əbdürrəhman Əfəndizadə tərəfindən Bakıda iki həftədən bir nəşr olunmuş ən mühüm uşaq məcmuəsidir. Bu Azərbaycanda nəşr olunan 3-cü uşaq jurnalıdır. Azərbaycan mətbuatında ilk uşaq jurnalı “Dəbistan”, ikincisi isə “Rəhbər” olmuşdur. “Məktəb jurnalı” nəşrə 1911-ci ildə başlayıb və 1920-ci ilə qədər davam etmiş uzun ömürlü uşaq mətbuat orqanıdır. Jurnalın mövcud nüsxələri Azəbaycan Milli Kitabxanasının arxiv şöbəsində 932-ci nömrə altında saxlanılır.

Nəşr olunduğu doqquz il müddətində məcmuənin 94 sayı çıxmışdır. Məcmuə müntəzəm olaraq iki həftədə bir nəşr olunmasına baxmayaraq, bəzən 10 gün, bəzən də 17 gündən bir çap edilmişdir. Bəzi aylarda da jurnal iki həftədə bir deyil, daha tez-tez nəşr olunmuşdur. Jurnal məktəb şagirdləri üçün nəzərdə tutulduğundan yay tətili zamanı nəşr olunmamışdır.

“Məktəb” jurnalını Qafur Rəşad Mirzəzadə və Əbdürrrəhman Əfəndizadə 1916-cı ilin may ayına qədər birlikdə çıxarmışlar. Lakin 1916-cı ilin may ayında Əbdürrəhman Əfəndizadənin vəfatı, Birinci Dünya Müharibəsinin gətirdiyi faciələr və 1917-ci ilin fevral hadisələri jurnalın müəyyən müddətə bağlanmasına səbəb olmuşdur. Bununla belə, 1918-ci ildə jurnalın növbəti sayı yenidən nəşr olunmuşdur. Daha sonra 1920-ci ildə yenidən Qafur Rəşad Mirzəzadənin rəhbərliyi altında “Məktəb” jurnalı

öz nəşr həyatına davam etsə də bundan sonra müntəzəm olaraq nəşr olunmamış və bağlanmışdır.

Dissertasiyanın "**Cocuq dünyası" və "Məktəb" jurnallarında dərc olunan ədəbi nümunələrin janr xüsusiyyətləri və ədiblər"** adlanan ikinci fəsli iki yarımfəsildən ibarətdir. Bu fəsildə jurnallarda yer alan şair və yazıçılarla yanaşı, jurnalda dərc olunmuş ədəbi mətnlərin janr xüsusiyyətləri haqqında məlumat verilmişdir.

**"Cocuq dünyası" və "Məktəb" jurnallarında yazıb-yaradan şair və yazıçılar"** adlı birinci yarımfəsildə dövrün öndə gələn şair və yazıçılarıyla yanaşı adları ədəbiyyat tarixində məlum olmayan yazıçılar, müəllimlər və yazıları dərc olunan bir sıra tələbələrdən bəhs edilmişdir.

XIX və XX əsrin əvvəllərində Türkiyə və Azərbaycan uşaq ədəbiyyatlarının inkişafında dövrün maarifçi şair və yazıçılarının ədəbi fəaliyyətləri xüsusilə mühüm yer tutur. Türkiyə və Azərbaycan ziyalıları həmin dövrdə Avropada ortaya çıxan yeni təhsil anlayışının təsiriylə maarifçi-ədəbi hərəkatın formalaşmasına və gənc nəslin təlim-tərbiyəsinə xüsusi diqqət yetirirlər. Bu məqsədlə, Türkiyə və Azərbaycanın maarifçi ziyalıları köhnəlmiş təhsil sistemindən uzaqlaşmağa çalışır, yeni təhsil anlayışlarına uyğun əsərlər yazmağa səy göstərirdilər. Məhz bu Qərb meyilli maarifçi düçüncə gənc nəslin tərbiyəsinə böyük əhəmiyyət vermiş və bu müstəvidə uşaq ədəbiyyatının inkişafında böyük rol oynayan və bu günə qədər öz təsirini qoruyub saxlayan ədəbi nümunələr yaratmışlar. Bu dövrdə maarifçilik məsələləri mühüm yer tutduğu üçün hər iki ölkənin şair və yazıçıları uşaq ədəbiyyatını inkişaf etdirməkdə maraqlı idilər. Qələmə alınan müstəqil əsərlər, eləcə də uşaqlar üçün çıxan "Cocuq dünyası" və "Məktəb" kimi uşaq jurnallarında nəşr olunan ədəbi mətinlər uşaq ədəbiyyatının təməllərinin atılmasında mühüm rol oynamışdır. Əsərləri bu jurnallarda çap olunan yazıçılar dövrün uşaq ədəbiyyatına xidmət etməklə yanaşı, günümüzə qədər gəlib çıxmış uşaq ədəbiyyatının ən qiymətli ədəbi nümunələrini yaratmışlar. Dövrün qabaqcıl yazıçıları ilə yanaşı, nisbətən az tanınan yazıçılar, müəllimlər, hətta tələbələr belə bu sahəyə öz töhfələrini vermişlər. Xüsusilə XX əsrin əvvəllərində demək olar ki, bütün müəlliflər uşaq ədəbiyyatına uyğun mövzularda əsər qələmə almağa çalışmışdılar.

Türkiyədə çıxan "Cocuq dünyası" məcmuəsində olduqca görkəmli bir yazıçı və şairlər ədəbi nümunələr nəşr etdirirdilər. Ziya Göyalp, Aka Gündüz, Ədhəm Nejad, Mehmet Emin (Yurdakul), Əli Ulvi (Elöve), İsmayıl Haqqı (Baltacıoğlu), Hüseyn Ragıp (Baydur) kimi məşhur yazıçılar

bu jurnala öz töhfələrini vermişdilər.[1] "Cocuq dünyası" jurnalında dövrün qabaqcıl yazıçıları ilə yanaşı, nisbətən az tanınan şair və yazıçıların, müəllimlərin və tələbələrin də yazılarına yer verilmişdir. "Adlarını çəkdiyimiz bu yazıçılarla yanaşı, türk uşaq ədəbiyyatını yaradan və inkişaf etdirən bu şair və yazıçılardan başqa, bu sahədə az-çox xidməti olmuş bir çox adları da saya bilərik: Cəfər bəy, Həmid bəy, Əli Seydi, Əli Heydər, Əski Əli Ülvi, Nəcib Necati (N. Vəcdi), Serezli Sədi, Süleyman Saip, Feyzullah Sacit, Suat Faxir, Rza Tofiq, Məmməd Muhiddin, Nazim Xürrəm, Senih Müəmmər, Məmməd Sirri, İrfan Emin, Emin Bülənd, Nahit Nafiz, Əli Rıdvan, Mahmud Sadiq, Əli R. Seyfi".[2]

XIX əsrin birinci yarısında Azərbaycan şairlərindən A. A. Bakıxanov və Q. B. Zakirin, əsrin ikinci yarısında isə S. Ə. Şirvaninin uşaq ədəbiyyatının yaranıb inkişaf etməsində böyük rolu olmuşdur.

"Ayrıca bu illərdə N. Nərimanov, C. Məmmədquluzadə, M. Ə. Sabir, R. Əfəndiyev, Ə. Haqverdiyev, S. S. Axundov, F. Köçərli, Ü. Hacıbəyov, A. Şaiq, A. Səhhət, S. M. Qənizadə və başqaları yaradıcılıqla ciddi məşğul olur, balalarımız üçün əsərlər yazırdılar. Yeni üsulla təlimin mahiyyətini dərindən başa düşən yazıçılar uşaqların əqli inkişafına kömək edəcək əsərlər yazmağa, tərcümə eləməyə çalışırdılar".[3]

"Məktəb" jurnalının nəşr olunmasında dövrün qabaqcıl yazıçılarnın böyük rolu olmuşdur. Dövrün məşhur yazıçıları ilə yanaşı, jurnalda müəllimlərin və tələbələrin də bir çox yazıları nəşr olunmuşdur. Müəllifi bəlli olmayan əsərlərlə yanaşı, "məktəbli, müəllim" təxəllüsləri ilə yazılan əsərlər də vardır.

Azərbaycan və Türkiyə arasındakı ədəbi əlaqələr özünü hər sahədə göstərirdi. "Məktəb" jurnalında Türkiyəli yazıçı və şairlərin əsərlərinin nəşri buna bariz nümunədir. Belə ki "Məktəb" jurnalında "Cocuq dünyası" dərgisi yazıçılarının əsərlərinə də yer verilmişdir. Onlardan Əhməd Midhətin "Qaranquş yuvası və ağıllı uşaq", "Bağanın bala çıxarması", "Balıqlar"; Əli Ülvinin "Anam", "Barmaqlar", "Buğda", "Türkü", "Qələm", "Qar", "Meymun ilə ceviz", "Pir Sultan"; Ləman Asımın "Ağıllı bir qəbilə şeyxi"; Məhəmməd Muhiddinin, "Gəzişərkən"; Nazim Xürrəminin, "Quzum", "Tacir ol, qardaşım", "Bahar", "Mən türkəm", "Dərdli bülbül", "Quşun yalvarışı"; Türk Oğlunun "Bahar töhfəsi",

[1] Okay C. Eski Harfli Çocuk Dergileri. İstanbul: Kitabevi, 1999, 240 s.
[2] Sarıyüce H. L. Türk Çocuk ve Gençlik Edebiyatı Ansiklopedisi: 2 cilddə, I cild . İstanbul: Nar, 2012, 866 s.
[3] Yusifoğlu R. Uşaq ədəbiyyatı, Bakı: Elm, 2002, 268 s.

“Sevgili məktəblilərə”, “Münacat” kimi əsərləri yer alaraq “Cocuq dünyası” ilə “Məktəb” jurnalı arasındakı münasibətlərin sıx olduğunu nümayiş etdirməkdədir.

II fəslin II yarımfəsli **“Cocuq dünyası” və “Məktəb” jurnallarında dərc olunan ədəbi nümunələrin janr xüsusiyyətləri”** adlanır. Jurnallarda dərc olunan ədəbi nümunələrin, ümumiyyətlə, hansı janrlarda oxucuya çatdırıldığı dissertasiyanın bu hissəsində qələmə alınmışdır. Jurnallarda dərc olunan ədəbi janrlar uşaqların xoşlarına gələcək hekayə, nağıl, əfsanə, şeir kimi nümunələrdən seçilmişdir. Uşaqların əylənməsi və fərdi inkişafı üçün maarifləndirici məlumatların olduğu elmi yazılara, sağlamlıqla bağlı məqalələr, uşaqlarda heyvanlara sevgi aşılayacaq təmsillərə, tapmacalara da xeyli yer verilmişdir.

“Cocuq dünyası” müəllifləri jurnalın daha keyfiyyətli olması üçün əvvəlki jurnalların buraxdığı səhvləri təkrarlamayaraq uşaqların maraq dairəsini artırmaq üçün bir çox ədəbi janrlarda əsərlər yazmışdılar. Jurnal ilk səhifəsindən etibarən uşaqlara müraciət formasını da müəyyənləşdirmişdir. Jurnalda nəşr olunan hekayə, nağıl, təmsil və şeirlər haqqında başda qısa məlumat verilir. Jurnalda digər millətlərin uşaq ədəbiyyatı nümunələri də çap olunmuşdur. Ancaq milli ədəbiyyata əsaslanan bu jurnallarda, yazıçıların qeyd etdikləri kimi, milli nağıl və hekayələrin üstünlük təşkil etdiyini görürük. Jurnalın məzmununa baxdıqda onun hər bir nömrəsində hekayə, şeir, nağıl, tərcümə əsərləri, tapmacalar, tapmacaların doğru cavablayanların siyahısı, kitab təqdimatlarını da aydın görə bilərik. Bununla belə jurnalda müəyyən faktorlar daim yer alsa da, hər nömrənin məzmununda seçilən ədəbi janrların müxtəlifliyi gözə dəyməkdədir.

“Məktəb” jurnalında çap olunan bədii nümunələrdə toxunulan mövzular jurnalın yaradılmasındakı məqsəd ilə üst-üstə düşür. Bu jurnalda ortaya qoyulan yazılar, jurnalın naşirləri tərəfindən həm maarifləndirmə işi aparmaq, həm də elmi inkişaf etdirmək məqsədilə hazırlanmışdır. Jurnalda hekayə, şeir, nağıl, təmsil, pyes, səyahət yazıları, tərcümeyi-hal, lətifə kimi janrlar vasitəsilə tarixi, coğrafi məlumatlar verilmişdir. Eyni zamanda burada elmi məqalələr, şifahi xalq ədəbiyyatı nümunələrindən tapmacalar, atalar sözü, zərbi məsəllər və s. də yer alır. Həmçinin jurnalın hər sayının sonunda “Lüğəti-məktəb” başlığı altında kiçik lüğət də təqdim olunmuşdur.

**“Cocuq dünyası” və “Məktəb” jurnallarında dərc olunan ədəbi nümuənələrin sənətkarlıq xüsusiyyətləri”** adlı üçüncü fəsil üç yarımfəsildən ibarətdir. Bu fəsildə “Cocuq dünyası” və “Məktəb” jurnallarının sənətkarlıq xüsusiyyətləri müqayisəli şəkildə öyrənilir.

**“Cocuq dünyası” və “Məktəb” jurnallarındakı bədii nümunələrin ideya-mövzu dairəsi”** adlı ikinci yarımfəsildə jurnallardakı ədəbi nümunələrin ideya-mövzu dairəsi müqayisəli olaraq araşdırılmışdır.

“Cocuq dünyası” və “Məktəb” jurnallarında nəşr olunan materiallarda XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanda yaşanan siyasi, ictimai və fəlsəfi hərəkatları, cəmiyyətdə baş verən prosesləri görmək mümkündür. Uşaq jurnalı olmasına baxmayaraq onlar da nəşr olunduqları dövrün təsirində qalmışdır. Xüsusiilə “Cocuq dünyası” jurnalının Türkiyədə “milliyyətçilik-türkçülük” cərəyanının uşaq ədəbiyyatı sahəsində mühüm nəşrlərdən biri olduğu qeyd edilməlidir. Jurnalda, əsasən, “milliyyətçilik-türkçülük və Balkan savaşları” ilə bağlı mövzularla yanaşı, əməksevərlik, çalışqanlıq, elm öyrənmək, əxlaqi dəyərlər, ağıllı və zəkalı olmaq, heyvansevərlik, təbiət sevgisi, ticarətin əhəmiyyəti, birlik və bərabərliyin əhəmiyyəti və s. kimi mövzulara da geniş yer verildiyini görmək mümkündür. “Məktəb” jurnalı da nəşr edildiyi dövrdə Azərbaycanda yazıb-yaradan maarifçi müəlliflərin uşaq ədəbiyyatı sahəsində səsi olmuşdur. Jurnalda əsasən “təhsil və tərbiyə” ilə bağlı nümunələrə yer verilmişdir. Bununla yanaşı, əxlaqi dəyərlər, təbiət sevgisi, mənəvi dəyərlər, vətən sevgisi, əməyin əhəmiyyəti, elmi nailiyyətlər və s. kimi mövzular da üstünlük təşkil etmişdir.

Dissertasiyanın “**Cocuq dünyası” və “Məktəb” jurnalında türkçülük və maarifçilik ideyaları”** adlanan ikinci yarımfəslində “Cocuq dünyası” jurnalının mərkəzində yer alan türkçülük ilə “Məktəb” jurnalındakı mövzuların əsasını təşkil edən maarifçilik, təhsil və tərbiyə ilə bağlı ideya-mövzu istiqaməti aşkarlanmışdır.

Fransız inqilabından sonra Türkiyədə genişlənən milliyyətçilik cərəyanı öncə qeyri-müsəlmanlar arasında sürətlə yayılmışdır. Müsəlman ərəblərin və arnavutların da milliyyətçilik hərəkatları ilə bağlı fəaliyyətləri osmançılıq və islamçılıq fikirlərinin yoxa çıxmasına səbəb olmuşdur. Buna görə də Osmanlı İmperiyasının  çökməsinin qarşısını almaq fikri türk xalqı arasında getdikcə güclənirdi. Belə vəziyyətdə digər millətlər öz kimliklərini və mənliklərini ortaya qoyaraq var olmaq üçün səy göstərdiyi kimi, Osmanlı ziyalıları da türkçülük ideyalarını da öndə tuturdular. XIX əsrin sonu, XX əsrin əvvəllərində Osmanlı-türk xalqının ictimai-siyasi, mədəni və sosial həyatında ən təsirli cərəyan olaraq “milliyyətçilik-türkçülük” əsas yer tutur. Türkçülük cərəyanının təmsilçiləri müxtəlif sahələrdə işlər görərək millətin rifahı və inkişafına xidmət edirdilər. türk dili sahəsində Cövdət Paşa, Şəmsəddin Sami, Bursalı Mehmet Tahir, Nəcib Asım, Vələd Çələbi, Ziya Göyalp, Mehmed Emin, Ahmet Hikmet, Yusuf Akçura,

Hamdullah Suphi və s. bu kimi yazıçılar “Türk dərnəyi”, “Türk ocağı” kimi müxtəlif dərnək və “Türk yurdu” adlı dərgidə türkçülüklə bağlı fikirlərini ortaya qoyaraq türk millətinin fikrini istiqamətləndirməyə çalışırdılar. Bu qabaqcıl şəxsiyyətlərlə yanaşı, Ömər Seyfəttin, Əli Canib, Köprülüzade Fuad və Asiyadan gələn İsmail Bəy Qaspıralı və Əli Axundzadə kimi türk ziyalılarının da zəhmətlərini nəzərə almamaq düzgün olmaz.

“Cocuq dünyası” jurnalı digər kütləvi informasiya vasitələri kimi nəşr edildiyi dövrün siyasi və ictimai hadisələrindən olduqca təsirlənmiş, bu dövrdə geniş yer alan “milliyyətçilik-türkçülük” cərəyanının və “Milli ədəbiyyat” ideologiyasının mətbuat orqanlarından birinə çevrilmişdir. Ümumiyyətlə, bu jurnalda dərc olunan materiallara nəzər saldıqda uşaqlarda milliyyətçilik-türkçülük duyğularının, vətən sevgisinin və milli tarix şüurunun təlqin edilmək istənildiyini açıq-aydın görmək mümkündür. Milli tarixlə bağlı hekayə və şeirlərin bəzilərində türk gənclərinə türk tarixi haqqında bilgilər verilir. İslamiyyətdən əvvəlki türk dövlətlərindən o dövrə qədər türk tarixinin müxtəlif mərhələlərinə yer verilərək türk gənclərində və jurnalın oxucularında milli tarix anlayışı canlandırılmağa çalışılmış, tarixin şanlı səhifələrinə xüsusi yer ayrılaraq gənclərin öz şanlı keçmişlərindən ilham almalarına diqqət yönəldilmişdir. Məsələn “Cocuq dünyası” jurnalının 69-cu nömrəsində“Hatırla ki” adlı mənzumədə bunu açıq aydın görmək mümkündür:

“Hatırlaki bir zamanlar dedelerin ne yaptı
O günleri düşünerek göğüs kabart ve övün
Unutmamış olsan gerek çünkü onlar daha dün
Şarkı garbı titrettiler onlara yer gök taptı
Onlar hakkın kılıcıydı, zulmetleri parçalar
Dökdükleri kandan çıktı nice güzel bağçalar”

Türk gənclərinə və uşaqlara səslənən, milliyyətçiliyin vurğulandığı əsərlərdə “türkçülük, vətən-millət sevgisi, vətən üçün fədakarlıq, tarix şüuru, islami dəyərlər, nifrət, intiqam, türklərə qarşı törədilən zülmlər, Balkan savaşlarının təsirləri və bu torpaqların yenidən geri qaytarılması ilə bağlı düşüncələr, osmançılıq, turan məfkurəsi, türk millətinin xarakterik xüsusiyyətləri kimi mövzuların işləndiyini görürük. Bu duyğuların gənc nəslə aşılanmasında bədii nümunələrdən müvəffəqiyyətlə istifadə olunmuşdur. “Cocuq dünyası” adlı jurnalında dərc olunan materialların başlıca ideya-mövzu istiqaməti məhz bundan ibarət olmuşdur.

“Məktəb” jurnalında isə maarifçilik, təhsil və tərbiyə məsələləri daha qabarıq şəkildə işlənmişdir. “Məktəb” jurnalı 1911-ci ildə nəşrə başlamışdır. Bu jurnalın nəşr həyatına başladığı il olduqca əhəmiyyətli bir

dövrə təsadüf edir. Azərbaycanda təhsil sahəsində görülən işlərin geniş vüsət aldığı bu dövrdə xüsusi ilə uşaqların yetişdirilməsi zərurəti ön plana çıxır.

"Məktəb" jurnalının birinci nömrəsində onun məqsədi haqqında məlumat verilmişdir. Nəriman Nərimanov jurnalda "Əziz balalar!" başlığı altında yazır: "Məktəb"i nəşr etməkdə məqsədimiz məktəb şagirdlərinin irəliləmələrinə acizanə bir xidmətdir. "Məktəb"i oxuyacaq şagirdlərin biliyi geniş bir dairə olarsa, o vaxt biz də məqsədimizə yetişmiş olarıq". "Məktəb" jurnalı ilk nömrəsindən başlayaraq yeniyetmələrin təhsil, təlim və tərbiyəsinə ciddi şəkildə xidmət etmişdir.

Jurnalın ortaya çıxmasına səbəb olan ən əhəmiyyətli amil həmin dövrdə Azərbaycan xalqının təhsil baxımından çox geridə qalması idi. Jurnalın əsas ideya və başlıca mövzusu təhsil, təlim və tərbiyə məsələləri olmuşdur.

III fəslin **"Cocuq dünyası" və "Məktəb" jurnallarındakı bədii nümunələrin dil və üslub xüsusiyyətləri"** adlı üçüncü yarımfəslində "Cocuq dünyası" və "Məktəb" jurnallarında dərc olunan bədii nümunələrin özünəməxsus dil və üslub xüsusiyyətləri araşdırılmışdır.

"Cocuq dünyası" və "Məktəb" jurnalları Türkiyə və Azərbaycan ədəbiyyatında sadə bir dil və üslubdan istifadə etməklə dildə sadəliyi inkişaf etdirən məqamları ortaya qoya bilmişdir. Belə vəziyyət bu jurnalların heç də uşaq ədəbiyyatı nümunəsi olmalarından qaynaqlanmır. Bunun başlıca səbəbi hər iki jurnalın dilində sadələşmə və özünə qayıdış səylərinin ortaya qoyulmasıdır. Bununla belə "Məktəb" jurnalında "Cocuq dünyası" jurnalı ilə müqayisədə daha çox əcnəbi mənşəli sözlərdən istifadə edildiyini görmək mümkündür. Buna görə də "Məktəb" jurnalının sonunda "lüğəti- məktəb" başlığı altında kiçik bir lüğətə yer verildiyi görülür. Burada verilmiş sözlərin mənasının hansı dildən alındığı qeyd olunmuşdur. Bu təcrübə o dövrdə həm uşaqların dil ehtiyatlarını inkişaf etdirmələri baxımından, həm də tədqiqatçıların jurnalda istifadə edilən əcnəbi mənşəli sözləri öyrənmələri baxımından faydalı olmuşdur. Jurnallarda istifadə edilən ərəb əlifbasını oxumaq tədqiqatçıların işini bir qədər çətinləşdirir. Türkiyə və Azərbaycan türkcəsində istifadə edilən bəzi səslərin qarşılıqlarının bu əlifbada olmaması yazılışı eyni, tələffüzü fərqli sözlərin oxunmasını da bir qədər çətinləşdirmişdir. Jurnallarda nəşr olunan bədii nümunələrdə istifadə edilmiş cümlələr qrammatik baxımdan düzgün və məntiqlidir. Yazıçılar qısa və aydın cümlələrlə mənanı təhrif etmədən sadə, aydın, axıcı bir üslub meydana gətirmişdilər. Söylədiklərimizlə yanaşı xalq ədəbiyyatının üslub xüsusiyyətlərini də jurnallardakı bədii nümunələrdə görmək

mümkündür. Jurnallar Türkiyə və Azərbaycan bədii nümunələrində istifadə edilən dilin sadələşməsinə və xalqın bu dili rahatlıqla anlamasına olduqca böyük xidmət etmişdir. Hər iki jurnalın üslubunda da xalqa yaxınlıq, sadəlik, axıcılıq və aydınlıq başlıca xüsusiyyət kimi diqqəti cəlb etməkdədir. Başlıca məqsədi oxucuları əsas etibarı ilə "milliyyətçilik", "təlim-tərbiyə" və digər mövzularda maarifləndirmək olan "Cocuq dünyası" və "Məktəb" jurnalları onları yora biləcək və başa düşülməsi çətin olacaq üslubdan kənar tutmaq olmuşdur. Hər iki jurnalın üslubundakı sadəliyə baxmayraq burada əksini tapmış əsərlər ədəbi cəhətdən yüksək keyfiyyətə sahibdir. İstifadə edilən qısa cümlələr, ədəbi sənətdən həddindən artıq uzaq ifadələr bədii nümunələrin təsirini və axıcılığını gücləndirmişdir. Əsərlərdə bənzətmə, mübaliğə, intaq (nitq) kimi ədəbi ifadə vaasitələrindən istifadə edərək sənət nümunələri yaratmışlar. Mənsur ədəbi nümunələrdə təsvirlər oxucunu heç də sıxacaq qədər çox deyildir. Hər iki jurnaldakı mənzum əsərlərdə şəkil və vəzn baxımından millilik başlıca yer tutur. Milli vəzn kimi hecadan daha çox istifadə edilir. Burada 7, 8, 11 heca ölçülərinə geniş yer verilmişdir. Jurnallarda klassik üslubda yazılmış şeirə, demək olar ki, ümumiyyətlə, yer verilməmişdir. Aka Gündüzün "Oğluma" adlı şeiri:

"Çalış, derdin sade budur, bu yara
Çalışmazsan sağalmazsın sen sonra
Devletini çıkarırlar pazara
Fakat yavrum o da vermez bir para...." [1]

bizə şeirlərin dili və üslubu haqqında ümumi bir məlumat verir. Bu da hər iki jurnalın dillə bağlı düşüncələrinə və məqsədinə uyğun olduğunu təsdiqləyir.

Dissertasiyanın **Nəticə** bölümündə mövzu ilə bağlı dissertasiyada gəldiyimiz qənaətlər aşağıdakı kimi ümumiləşdirilmişdir.

"Cocuq dünyası" və "Məktəb" jurnallarının tədqiqata cəlb edilməsi nəticəsində XIX əsrin sonu XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanda cəmiyyətin sosial-siyasi və ədəbi mühitin ümumi mənzərəsi təhlil edilmiş, Türkiyə və Azərbaycanda nəşr olunan "Cocuq dünyası" və "Məktəb" jurnallarının uşaq ədəbiyyatının formalaşmasında və inkişafındakı rolu müəyyənləşdirilmişdir.

Hər iki jurnalda yer alan ədəbi mətinlərin janr xüsusiyyətlərinin araşdırılması nəticəsində uşaqların təlim-tərbiyə məsələlərinin, estetik zövqünün formalaşması məsələsi ortaya çıxarıldı.

---

[1] Çocuk Dünyası, İstanbul: Kader matbaası, № 25, 1913, s.13

Hər iki jurnalın tədqiqi nəticəsində burada dərc olunan şair və yazıçıların ədəbi yaradıcılığı ilə yanaşı iştirak etdikləri ideoloji cərəyanlar, eləcə də maarifçilik fəaliyyətləri də geniş şəkildə öyrənildi.

Tədqiqatdan gəlinən qənaət bundan ibarətdir ki, “Cocuq dünyası” və “Məktəb” jurnalları vaxtı ilə bir-biri ilə əlaqə qurmuşdular. “Cocuq dünyası”nın müxtəlif saylarında “Məktəb” jurnalından bəhs edilir. Ayrıca “Məktəb” jurnalında “Cocuq dünyası” jurnalından alınmış bəzi əsərlərə yer verildiyi nəzərə çarpır. Bu da daha o zamanlar ədəbi əlaqələrin nə qədər geniş inkişaf etdiyini göstərir.

Həm “Cocuq dünyası” jurnalı, həm də “Məktəb” dərc olunan materiallar baxımından bir-birindən əsas istiqamətlər üzrə fərqlənsələr də, ümumi olaraq hər ikisinin ortaq məqsədi uşaqların fərdi inkişafına nail olmaq, onları maarifləndirməkdən ibarətdir. “Cocuq dünyası” jurnalının əsas inkişaf xətti öz dövrünün ictimai və siyasi həyatında böyük rol oynayan “milliyyətçilik-türkçülük” ideoloji cərəyanının təsiriylə formalaşmışdır.

“Cocuq dünyası” və “Məktəb” jurnallarında istifadə olunan dil və üslub xüsusiyyətləri tədqiqata cəlb edilmiş və nəticə olaraq hər ikisində də dövrünə görə daha sadə bir dillə yazılması ilə yanaşı ifadələrin seçimi, cümlələrin quruluşu və ərəb-fars mənşəli kəlimələrin azlığı baxımından “Cocuq dünyası” jurnalının uşaqların dünyagörüşünə və düşüncə tərzinə daha uyğun olduğu müəyyənləşdirilmişdir.

XX əsrin əvvəllərində Türkiyə və Azərbaycan uşaq ədəbiyyatında ideya-mövzu rəngarəngliyini “Cocuq dünyası” və “Məktəb” jurnalları əsasında araşdıran bu tədqiqat işi, şübhə yoxdur ki, jurnallarla bağlı bütün məsələləri incəliyi ilə ehtiva edə bilməz. Elə buna görə də bu jurnalların bir sıra digər keyfiyyətləri ilə bağlı bundan sonra da bir sıra tədqiqat işlərinin ortaya çıxmasına ehtiyac duyulmaqdadır.

Dissertasiyanın əsas məzmun və müddəaları aşağıdakı məqalələrdə öz əksini tapmışdır.

1. “Məktəb” mecmuasındaki (1911-1925) hikayelerde sosyal hayatın yansımaları // Qafqaz Universiteti II Beynəlxalq Türk Xalqları Uşaq ədəbiyyatı Konqresi Materiallar, Bakı, 2012, s. 434-440
2. “Məktəb” dergisindeki hikayelerde eğitim mevzuları // Journal of Qafqaz University, Philology and pedagogy, v.1 n. 2, Bakı, 2013, s. 250-260
3. “Çocuk dünyası” (“Uşaq dünyası”) dərgisindəki bədii nümunələrdə milli kimliyin vurğulanması (Milliyətçilik) // Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri, Bakı Slavyan Universiteti, Bakı: 2/2014, s. 412-421
4. Reflection of Balkan Wars in The Literary Genres on The “Child World” Magazine//Філологінауки, ПолтавскиУніверситет, Полтава: 2014, № 19, s.67-74
5. “Məktəb” Dergisinin Azerbaycan Çocuk Edebiyatı Numunelerinin Yaratılmasında Rolü // Ученыезаписки, Симферополь: 2014, №4, s.157-162
6. “Cocuq dünyası” jurnalındakı bədii nümunələrin ideya-mövzu dairəsi // Sivilizasiya, Bakı Avrasiya Universiteti, Bakı: 2016, № 2, s. 96-102
7. XX əsrin əvvəllərində Türkiyə uşaq mətbuatının yaranmasında “Cocuq dünyası” jurnalının rolu // Filologiya Məsələləri, AMEA M. Füzuli Adına Elyazmalar İnstitutu, Bakı:2016, № 2, s. 377-384
8. “Cocuq dünyası” və “Məktəb” jurnallarının dil-üslub xüsusiyyətləri // Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri, Bakı Slavyan Universiteti, Bakı: 2016, № 1, s. 91-96
9. XX əsrin əvvəllərində türk uşaq ədəbiyyatının formalaşmasında türkiyəli yazarların rolu // “Dil və ədəbiyyat” Beynəlxalq elmi-nəzəri jurnal, Bakı Dövlət Universiteti, Bakı:2016, № 1, s. 211-213
10. XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanda uşaq ədəbiyyatının inkişafı // Axtarışlar, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Naxçıvan:2016, № 1 s.61-67

**Умит Пекташ**

## Идейно-тематическое разнообразие художественных образцов детской литературы Турции и Азербайджана начала XX века на примере журналов «Cocuq Dünyası» («Детский мир») (1913-1918) и «Məktəb» («Школа») (1911-1920)


РЕЗЮМЕ

В диссертационной работе раскрыто развитие детской литературы Турции и Азербайджана и роль общественно-политических и культурно-литературных движений эпохи в данном развитии.

Диссертационная работа состоит из введения, трех разделов, заключения и списка литературы.

Первый раздел исследовательской работы называется **«Общественно-политическая, литературная среда и детская литература в Турции и Азербайджане в начале XX века»** и состоит из трех подразделов. В первом разделе исследовательской работы внимание привлечено к общественно-политической, литературной среде и детской литературе Турции и Азербайджана начиная с конца XIX века до второго десятилетия XX века. Второй раздел диссертации называется **«Жанровые особенности литературных образцов, публикуемых в журналах «Cocuq Dünyası» («Детский мир») и «Məktəb» («Школа»), и писатели»**. Данный раздел состоит из двух подразделов. Во втором разделе наряду с поэтами и писателями, произведения которых публиковались в журналах «Cocuq Dünyası» («Детский мир») и «Məktəb» («Школа»), также дается информация о жанровых особенностях литературных текстов, опубликованных в журналах.

Третий раздел, озаглавленный **«Мастерские особенности литературных образцов, публикуемых в журналах «Cocuq Dünyası» («Детский мир») и «Məktəb» («Школа»)»**, состоит из трех подразделов. В данном разделе исследован идейно-тематический охват литературных образцов в журналах «Cocuq Dünyası» («Детский мир») и «Məktəb» («Школа»), выявлены художественные образцы, пропагандирующие идеи тюркизма в журнале «Cocuq Dünyası» («Детский мир»), и просветительские идеи в журнале «Məktəb» («Школа»).

Результаты, полученные по итогам исследовательской работы, список произведений, использованных в ходе исследования, представлены в заключение работы.

**Umit Pektash**

**On the basis of Idea-subject polychromatism of artistic patterns in children's literature of Turkey and Azerbaijan in the beginning of XX century" (on the basis of the JOURNALS "Cocuq Dünyası" (1913-1918) and "Məktəb" (1911-1920)**

SUMMARY

The development of children's literature of Turkey and Azerbaijan and the role of political-public and cultural-literary movements of the period in this development has been in the focus of attention in this thesis. So, the Journals "Cocuq Dünyası" and "Məktəb" published in Turkey and Azerbaijan were brought to your attention as the test object, the idea-subject direction has been found in the artistic patterns, and the connection between both journals has been found.

The thesis consists of preface, three chapters, result and literature.

The first chapter of the research work is called **"Public-political, literary environment and children's literature of Turkey and Azerbaijan in the beginning of XX century"** and is divided into three half chapters. The public-political, literary environment and children's literature of Turkey and Azerbaijan from XIX century up to the second decades of XX century has been researched and has been in the focus of attention. So, the ground that the idea-subject direction in the artistic patterns based on has been found.

The second chapter of the research work is called **"Genre peculiarities of literary patterns published in the Journals "Cocuq Dünyası" and "Məktəb" and the writers"**. This chapter consists of two subheads. The information on genre peculiarities in the artistic texts published in the journals has been given along with the poets and writers whose works have been published in the Journals "Cocuq Dünyası" and "Məktəb".

The third chapter called "**Mastery features of literary patterns published in the Journals "Cocuq Dünyası" and "Məktəb"** consists of three subheads. The idea-subject circle of artistic patterns in the journals **"Cocuq Dünyası" and "Məktəb"** has been researched, the artistic patterns have been arisen where the enlightenment ideas were propagated in the journal "Məktəb" and the ideas of Turkism in the journal "Cocuq Dünyası".

The results arisen during the research and the list of works used in the research are replaced at the end.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ВОСТОКОВЕДЕНИЯ им. акад. З.М.БУНИЯТОВА**

*На правах рукописи*

**УМИТ ЮСУФ оглы ПЕКТАШ**

# ИДЕЙНО-ТЕМАТИЧЕСКОЕ РАЗНООБРАЗИЕ ХУДОЖЕСТВЕННЫХ ОБРАЗЦОВ ДЕТСКОЙ ЛИТЕРАТУРЫ ТУРЦИИ И АЗЕРБАЙДЖАНА НАЧАЛА XX ВЕКА НА ПРИМЕРЕ ЖУРНАЛОВ «COCUQ DÜNYASI» («ДЕТСКИЙ МИР») (1913-1918) И «МƏКТƏВ» («ШКОЛА») (1911-1920)

**5717.01- Литература тюркских народов**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации соискание ученой степени
доктора философии по филологии

**БАКУ-2016**